*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 350–355
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 350–355
DOI: https://doi.org/10.36719/2706-6185/60/350-355

# Turizm sahəsində insan hüquqlarının tənzimlənməsi məsələsində beynəlxalq hüquq normalarının əhəmiyyəti

**İzzət Səfərov**

***Xülasə.*** *Bu məqalədə turizm sektorunda insan hüquqlarının tənzimlənməsində beynəlxalq hüquq normalarının rolunu və əhəmiyyətini təhlil edilmişdir. Turizmin qlobal miqyasda sürətli inkişafı, bu istiqamətdə fəaliyyət göstərən bütün maraqlı tərəflərin, məsələn, turistlərin, bu sahədə çalışan işçilərin, yerli icmaların hüquqlarının qorunmasını zəruri etmişdir. Tədqiqat beynəlxalq hüquqi sənədlərin, xüsusilə BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən qəbul edilmiş Qlobal Turizm Etik Kodeksi, İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi, Beynəlxalq Əmək Təşkilatının konvensiyaları və digər çoxtərəfli müqavilələrin tənzimləyici mexanizmlərini araşdırır.*
*Metodoloji baxımdan hüquqi normativ və müqayisəli təhlil üsullarından istifadə edilmişdir. Nəticələr göstərir ki, beynəlxalq hüquq normaları dövlətlərə, turizm müəssisələrinə və digər aktorlara əmək haqqı, iş şəraiti, ayrı-seçkiliyin qarşısının alınması, yerli əhalinin məcburi köçürülməməsi və ətraf mühitin mühafizəsi kimi sahələrdə öhdəliklər qoymaqla mühüm tənzimləyici çərçivə təqdim edir. Lakin mövcud mexanizmlərin qeyri-məcburi xarakteri və nəzarət tətbiq mexanizmlərinin zəifliyi bu normaların effektivliyini məhdudlaşdırır. Məqalə beynəlxalq hüquq normalarının turizm sektorunda insan hüquqlarının qorunması üçün vacib, lakin təkmilləşdirilməyə ehtiyacı olan bir vasitə olduğu qənaətinə gəlir.*

***Açar sözlər:*** *turizm hüququ, beynəlxalq hüquq, insan hüquqları, Qlobal Turizm Etik Kodeksi, turizmin tənzimlənməsi*

---

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: sepherov2003@gmail.com
Daxil oldu: 29 Dekabr 2025; Qəbul edildi: 11 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Significance of International Legal Norms in the Regulation of Human Rights in the Tourism Sector

**Izzet Safarov**

***Abstract.*** *This article examines the role and significance of international legal norms in regulating human rights within the tourism sector. The rapid expansion of tourism on a global scale has made it essential to protect the rights of all relevant stakeholders involved in this field, including tourists, workers employed in the industry, and local communities.*

*The study investigates the regulatory mechanisms of various international legal instruments, with particular emphasis on the Global Code of Ethics for Tourism adopted by the United Nations World Tourism Organization, the Universal Declaration of Human Rights, conventions established by the International Labour Organization, and other multilateral agreements.*
*From a methodological standpoint, the research draws on legal normative analysis and comparative assessment techniques. The findings reveal that international legal standards offer a substantial regulatory framework by imposing obligations on states, tourism enterprises, and other actors in areas such as wage fairness, working conditions, prevention of discrimination, avoidance of forced displacement of local populations, and environmental protection. Nevertheless, the non-binding nature of existing mechanisms and the limited effectiveness of enforcement and monitoring systems constrain the practical impact of these norms. The article concludes that while international legal standards represent an essential tool for safeguarding human rights in the tourism industry, they still require further refinement and strengthening.*

***Keywords:*** *tourism law, international law, human rights, Global Code of Ethics for Tourism, tourism regulation*

---

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: sepherov2003@gmail.com
Received: 29 December 2025; Accepted: 11 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İnsanlar yarandığı gündən bəri həm sosial, həm də fiziki tələbatlarını qarşılamaq məqsədi ilə daim bir-biri ilə ünsiyyət və qarşılıqlı əlaqə şəraitində yaşamışdır. Tarix boyu insanların bir yerdən başqa bir yerə köçməsi və fərqli cəmiyyətlərlə əlaqəyə girməsi müxtəlif amillərlə–iqtisadi maraqlar, siyasi hədəflər, dini etiqadlar və ya sadəcə olaraq maraq və kəşf həvəsi ilə əlaqəli olmuşdur (Boz, 2008, s. 22). Qədim dövrlərdə və orta əsrlərdə Qədim Misir, Finikiya, Babil və Şumer kimi sivilizasiyalarda insanlar ticarət, səyahət və müşahidə məqsədilə müxtəlif ərazilərə səfərlər edərək cəmiyyətlər arasında sosial və iqtisadi bağların yaranmasına səbəb olmuşdur (Barutçugil, 1989, s. 39). Zaman keçdikcə bu cür qarşılıqlı əlaqələrin genişlənməsi insanların davranış və münasibətlərini tənzimləyən müəyyən qayda və normaların yaranması ehtiyacını doğurmuşdur.

Məhz həmin ehtiyacın nəticəsi olaraq ictimai münasibətlərin tənzimlənməsi məqsədilə hüquq mexanizmləri formalaşmağa başlamış, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə hüquq normaları, dövlətlərarası sazişlər və anlaşmalar ortaya çıxmışdır. Bu proses nəticədə insanın ləyaqətli həyat yaşaması, təhlükəsizliyinin təmin olunması və bərabər hüquqlara sahib olması kimi prinsipləri özündə cəmləşdirən “insan haqları” anlayışının meydana gəlməsinə yol açmışdır. Hüquq baxımından yanaşdıqda, turizm fəaliyyətinin genişlənməsi bu sahədə iştirak edən bütün tərəflərin hüquqlarının müdafiəsini və çıxarlarının tarazlaşdırılmasını zəruri edir. Bu səbəbdən müasir hüquq nəzəriyyəsində turizm və insan haqları arasındakı qarşılıqlı əlaqə və inteqrasiya məsələsi xüsusi diqqət obyektinə çevrilmişdir.

Turizm sahəsində tərəqqiyə nail olmağın üsullarından biri dövlətlər arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasıdır (Rəhimova, 2021, s. 178). Turizmin qlobal miqyaslı olması isə bu sahədə hüquqi tənzimləmənin sadəcə milli qanunvericiliklə məhdudlaşmadığını ortaya qoyur. Beynəlxalq turizm fəaliyyəti müxtəlif ölkələrin hüquq sistemlərinin bir-biri ilə əlaqələndirilməsini və uyğunlaşdırılmasını tələb edən geniş spektrli və dinamik bir hüquqi mühit yaradır.

**Tədqiqat**

Beynəlxalq miqyasda turizm siyasətinin formalaşdırılmasında və turizm fəaliyyətinin inkişaf istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayan qurumlardan biri Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatıdır (BMTÜTT). Bu təşkilat turizm siyasətinin işlənib hazırlanması, statistik göstəricilərin toplanması, davamlı turizmin təşviqi və ölkələr arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi sahələrində çalışır. Bundan başqa, BMTÜTT tərəfindən qəbul olunmuş "Qlobal Turizm Etik Kodu" turizm fəaliyyətində etik davranış qaydalarını və sosial məsuliyyət prinsiplərini müəyyənləşdirməklə turizm ilə insan haqları arasındakı bağın güclənməsinə xidmət edir (WTO, 2022).

Əlavə olaraq, beynəlxalq sazişlər və konvensiyalar da turizm hüququnun qanuni zəminini yaradan vacib sənədlər sırasındadır. Hava və dəniz daşımalarına aid Varşava və Monreal konvensiyaları, viza rejimləri və sərhəd keçidləri ilə bağlı beynəlxalq müqavilələr, həmçinin YUNESKO-nun mədəni və təbii irsin mühafizəsinə dair konvensiyası turizm fəaliyyətinin hüquqi çərçivəsini müəyyənləşdirir və turistlərin hüquqlarının müdafiəsinə xidmət göstərir (UNESCO, 1972). Bununla yanaşı, Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Əmək Təşkilatı, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, habelə Dünya Turizm Təşkilatı kimi beynəlxalq qurumlar müxtəlif tövsiyələr, proqramlar və təşəbbüslər vasitəsilə turizm sektorunda insan hüquqlarının müdafiəsinin möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr verirlər. Turizm mikro, kiçik və orta ölçülü müəssisələr vasitəsilə iqtisadi artıma təsir göstərir (ILO, 2017, s. 1, 9).

Turizmin sosial və iqtisadi əhəmiyyəti ilə yanaşı, bu sahənin insan haqları ilə əlaqəsi də nəzəri və hüquqi cəhətdən izah edilməlidir. Bu baxımdan insan haqları anlayışının tarixi inkişaf mərhələlərinə müraciət etmək vacibdir. XVII və XVIII əsrlərdə Tomas Hobbs, Con Lokk, Samuel fon Pufendorf və Jan-Jak Russo kimi ictimai müqavilə nəzəriyyəçiləri hüquqların qaynağını izah etmək məqsədilə müxtəlif nəzəri konsepsiyalar ortaya qoymuşlar (Arslan, 2024, s. 1645). Müasir dövrdə insan haqlarının müdafiəsi beynəlxalq hüququn təməl prinsiplərindən biri kimi qəbul edilməkdədir və bu sahədə bir çox əhəmiyyətli beynəlxalq sənədlər qəbul olunmuşdur. Həmin sənədlər arasında ən önəmlilərindən biri Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsidir. Birləşmiş Millətlər Təşkilatı 1948-ci ildə dünya miqyasında fərdlərin və cəmiyyətlərin riayət etməli olduğu dəyərlər sisteminin yaradılmasının həyati vacibliyini dərk edərək bu prinsipləri İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi adı ilə qəbul etmişdir. Bəyannamənin 2-ci maddəsində bərabərlik prinsipi aşağıdakı şəkildə ifadə olunmuşdur: "Hər bir şəxs, irqi, dəri rəngi, cinsi, dili və dini etiqadı, siyasi və digər əqidələri, milli və ya sosial mənşəyi, əmlakı, doğulması və ya digər statusu nəzərə alınmadan, bu Bəyannamədə qeyd olunan bütün hüquq və azadlıqlardan istifadə edə bilər" (United Nations, 2015; Jubojević, 2017, s. 204).

İnsan haqlarının beynəlxalq səviyyədə müdafiəsi istiqamətində qəbul edilmiş əsas sənədlər arasında İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi (1948), Beynəlxalq Səyahət və Turizm üzrə Birləşmiş Millətlər Konfransı (1963), İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1966) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Konfrans (1975) xüsusi yer tutur. Bu sənədlər insan haqlarının beynəlxalq hüquqi bazasının yaradılmasında və dövlətlərin öhdəliklərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır (Cole,2010, s.110–120).

XX-XXI əsrin ilk onilliklərində baş vermiş sosial- iqtisadi, siyasi dəyişikliklər insan haqlarının müdafiəsi məsələsini daha da ön plana çıxarmışdır. Daxili münaqişələr və dövlətlərarası toqquşmalar, terror hadisələri, dini qarşıdurmalar, həm təbii, həm də insan fəaliyyəti nəticəsində yaranan ekoloji fəlakətlər, miqrasiya axınlarının güclənməsi və COVID-19 qlobal pandemiyası insan haqlarının təmin edilməsinə ciddi təsir göstərmişdir. Qloballaşma prosesləri və informasiya texnologiyalarının

sürətli inkişafı bu hadisələrlə bağlı məlumatların yayılmasını xeyli sürətləndirmişdir. Turizm sektorunun genişlənməsi ilə bağlı olaraq bəzi hallarda insan haqlarının pozulması ilə bağlı narahatlıqlar da artmışdır. Qeyri-hökumət təşkilatlarının hesabatlarında turizm fəaliyyəti ilə əlaqəli istismar halları, yerli icmaların zorla köçürülməsi, aşağı əmək haqqı və qeyri-qənaətbəxş iş şəraiti kimi problemlər qeydə alınmışdır (Giampiccole, 2012, s.175–180). Turistlər çox vaxt turizm sektorunda baş verən insan haqları pozuntularının varlığına diqqət çəkmiş, səyahət məntəqələrində yaşayan yerli sakinlər isə gələn ziyarətçilərin və bütövlükdə sektorun fəaliyyətinin onların hüquqlarına zərər vurduğunu bəyan etmişdir. Bununla belə, turizm çalışanları həm işəgötürənlərin, həm də turistlərin onların ləyaqət və əmək hüquqlarını lazımınca nəzərə almadığını bildirmişlər. (George, 2007, s. 41).

Turizm fəaliyyətlərinin və növlərinin sürətlə çoxalması ilə əlaqədar olaraq bərabərsizlik, irqçilik, institusional hakimiyyətin sui-istifadəsi, uşaq hüquqları, əlilliyi olan şəxslərin hüquqları, ekoloji hüquqlar, qadın hüquqları, istehlakçı hüquqları və ayrı-seçkilik kimi sahələrdə qeyri-etik davranış və münasibətlər ortaya çıxmışdır. Problemin həlli istiqamətində ilk növbədə dövlətlərin üzv olduğu bütün beynəlxalq qurum və təşkilatlar turizmin əsas maraqlı tərəfləri kimi qəbul edilməyə başlanmışdır.

Turizm sferasında və insan haqları sahəsində mənfi halların qarşısının alınması məqsədi ilə Avropa İttifaqı, Greenpeace və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq qurumlar universal etik tədbirlər müəyyən etmişlər. Turizmin insan haqları ilə əlaqəsi və qarşılıqlı inteqrasiyası nəzərə alınaraq tərəflərin, yəni maraqlı subyektlərin hüquq və vəzifələri müəyyənləşdirilmişdir. Bu çərçivədə BMT sistemi daxilində turizm sektorunda ədalətlilik, ardıcıllıq və etik davranışın təşviqi məqsədilə müxtəlif institusional təşəbbüslər reallaşdırılmışdır. Bu təşəbbüslər turizm təşkilatlarının həm işçilər, həm də müştərilər qarşısında etibarlılığının və nüfuzunun artırılmasına yönəldilmişdir (Fennell və Malloy, 2007).

Bu məqsədə nail olmaq üçün BMT-nin Ümumdünya Turizm Təşkilatı (BMTÜTT) tərəfindən “Turizm Sahəsində Qlobal Etik Kodeks” adlı sənəd qəbul edilmişdir (WTO, 2022). Həmin sənəd turizm sahəsində çalışan bütün maraqlı tərəflərin – dövlətlərin, turizm şirkətlərinin, səyahətçilərin və yerli icmaların – əməl etməli olduğu etik davranış normalarını müəyyənləşdirir və turizmin insan haqları, sosial ədalət və dayanıqlı inkişaf prinsipləri ilə uyğunlaşdırılmasını hədəfləyir. Turizm və insan haqları arasındakı əlaqəyə qloballaşma prosesləri də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Qloballaşma coğrafi, iqtisadi və mədəni sərhədlərə dair ənənəvi qavrayışları dəyişdirərək turizm fəaliyyətlərinin həcmini və sıxlığını xeyli artırmışdır. Hərəkətliliyin yüksəlməsi nəticəsində dünya miqyasında məsafələr “qısalmış”, sosioloq Ziqmunt Bauman bu hadisəni “məsafənin ölümü” olaraq adlandırmışdır (Sheller, 2004, s. 30). Texnoloji tərəqqi isə informasiyanın, kapitalın və insanların hərəkətinin daha intensiv xarakter almasına şərait yaratmışdır (Sheller, 2004, s. 2–6). Turizm insan haqları baxımından əhəmiyyətli sosial funksiyalar da icra etmişdir. Xüsusilə, turizmin inkişafı bir çox ölkələrdə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və işlə təmin olunmanın artırılması baxımından mühüm rol oynamışdır. Bu yanaşma sosial dövlət konsepsiyası ilə də sıx surətdə bağlıdır. Sosial dövlət anlayışı vətəndaşlar üçün bərabər imkanların yaradılmasını və sosial rifahın artırılmasını əsas məqsəd kimi müəyyənləşdirir. Bu çərçivədə turizm bəzi hallarda sosial siyasətin bir aləti kimi çıxış edərək vətəndaşların istirahət və rekreasiya imkanlarına əlçatanlığını genişləndirmişdir.

## Nəticə

Beynəlxalq hüquq çərçivəsində turizm və insan haqları mövzusuna ümumi bir baxışla yekunlaşdırsaq, bu iki sahə arasındakı qarşılıqlı əlaqənin getdikcə daha nizamlı və sistemli bir formada tənzimləndiyini görərik. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı tərəfindən

qəbul olunmuş sənədlərdə turizm fəaliyyətinin insan haqlarına hörmət prinsiplərinə, həmçinin ekoloji baxımdan davamlı inkişafın təmin edilməsinə uyğun şəkildə icra edilməsi vacib şərt kimi irəli sürülür. Bu yanaşma eyni zamanda Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Minilliyin İnkişaf Məqsədləri və Davamlı İnkişaf Məqsədləri kimi sənədlər tərəfindən də dəstəklənir və turizmin sosial-iqtisadi inkişaf üçün nə qədər əhəmiyyətli bir vasitə olduğunu ortaya qoyur.

Turizm sektorunda fəaliyyət göstərən işçilər insan kapitalı olaraq dəyərləndirilir və göstərilən xidmətin keyfiyyətinin yaranmasında həlledici əhəmiyyətə malikdirlər. Bununla belə, əmək haqqı, iş vaxtı, təhlükəsizlik və ayrı-seçkiliyin qarşısının alınması kimi məsələlərdəki cari problemlər işçilərin ruhlandırılmasına və sektorun uzunmüddətli inkişafına mənfi təsir edir. Beynəlxalq əmək hüququ qaydalarına uyğun tədbirlərin kifayət qədər icra edilməməsi və nəzarət mexanizmlərinin zəif olması sektorun hüquqi boşluqlardan əziyyət çəkməsinə yol açır.

Bundan başqa, turizm fəaliyyətinin genişlənməsi yerli icmaların hüquqlarına da təsir edir. Çox vaxt turistlərin hüquqları ön planda tutulsa da, yerli sakinlərin sosial, iqtisadi və mədəni hüquqları kifayət qədər qorunmur. Halbuki yerli icmanın hüquqları insan ləyaqətinin və məqbul həyat şəraitinin təmin edilməsinin təməl daşlarından biridir. Bu səbəbdən sosial, ekoloji və iqtisadi məsuliyyət prinsiplərinə dayanan məsuliyyətli turizm, etik turizm və etik turist anlayışlarının təşviqi turizmin insan haqlarına uyğun şəkildə inkişaf etdirilməsi üçün böyük əhəmiyyət daşıyır. Beynəlxalq hüquqi çərçivə, eyni zamanda dövlətlərin, turizm sahəsinin və digər maraqlı tərəflərin öhdəliklərini aydın şəkildə müəyyənləşdirir. Turizm Etikası üzrə Qlobal Kodeks həmin prinsiplərin real həyatda tətbiqinə xidmət göstərir və turizm fəaliyyəti prosesində yerli icmaların, işçilərin və turistlərin hüquqlarının tarazlı şəkildə müdafiə olunmasını təmin edir. Bu isə turizm sektorunun sosial, iqtisadi və ekoloji baxımdan dayanıqlılığını daha da möhkəmləndirir.

Yekun olaraq, turizm sahəsində insan haqlarının müdafiəsi uzaqgörən perspektivdə təkcə sosial ədalət baxımından deyil, həm də iqtisadi dayanıqlıq və davamlı inkişaf baxımından mühüm əhəmiyyət daşıyır. Gələcək dövrlərdə turizm hüququ yeni qlobal meyllərə uyğunlaşmalı, rəqəmsal turizm, süni intellekt, məlumat təhlükəsizliyi, sağlamlıq turizmi və kosmos turizmi kimi istiqamətlər üçün hüquqi mexanizmlər işləyib hazırlamalıdır. Bununla yanaşı, iqlim dəyişikliyi, pandemiyalar və qlobal iqtisadi dəyişikliklər turizm hüququnun təkamülünü zəruri edir və insan haqları ilə turizm arasında gələcəkdə daha sıx inteqrasiyanı şərtləndirir.

## Ədəbiyyat


1. Arslan, L., & Çavuş, M. N. (2024). Entegrasyon bağlamında turizm ve insan hakları. *Tarih Okulu Dergisi, 17*(70), 1643–1675.
2. Barutçugil, İ. S. (1989). *Turizm işletmeciliği*. Beta Basım Yayın.
3. Boz, N., & Hocaoğlu, U. (2008). *Turizm hukuku*. Seçkin Yayıncılık.
4. Cole, S., & Eriksson, J. (2010). Tourism and human rights. In *Tourism and inequality: Problems and prospects* (pp. 107–125). CAB International.
5. Fennell, D., & Malloy, D. (2007). *Codes of ethics in tourism: Practice, theory, synthesis*. Channel View Publications.
6. George, B. P., & Varghese, V. (2007). Human rights in tourism: Conceptualization and stakeholder perspectives. *Electronic Journal of Business Ethics and Organization Studies, 12*(2), 40–48.
7. Giampiccoli, A., & Kalis, J. H. (2012). Community-based tourism and local culture. *PASOS, 10*(1), 173–188.
8. International Labour Organization. (2017). *ILO guidelines on decent work and socially responsible tourism*.

9. Jubojević, R. (2017). International legal framework for tourism sustainability. *Tourism International Scientific Conference Proceedings, 2*(2), 203–218.
10. Rəhimova, M. (2021). Azərbaycan Respublikasında turizm sahəsində kadr potensialının artırılmasında beynəlxalq əməkdaşlığın rolu. *Elmi İş, 15*(4), 178–180. https://doi.org/10.36719/2663-4619/65/178-180
11. Sheller, M., & Urry, J. (2004). *Tourism mobilities: Places to play, places in play*. Routledge.
12. UNESCO. (1972). *Convention concerning the protection of the world cultural and natural heritage*.
13. United Nations. (2015). *Universal Declaration of Human Rights*.
14. World Tourism Organization. (2022). *International code for the protection of tourists*.